# COP28-in prezidenti İtki və Zərər Fondunun ilk tarixi iclasına sədrlik edib

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) sənaye və qabaqcıl texnologiyalar naziri və COP28-in prezidenti Sultan Əl Cabir aprelin 30-da ötən il iqlim konfransı çərçivəsində təsis edilmiş İtki və Zərər Fondunun İdarə Heyətinin ilk iclasındakı çıxışında iqlim tərəfdaşlığı tərəflərini bu fəaliyyəti tərəqqi üzərində qurmağa, davamlı, iqlim dəyişikliyinə ən həssas olan ölkələrə kömək etməyə çağırıb.**

AZƏRTAC "Emirates" agentliyinə istinadla xəbər verir ki, Sultan Əl Cabirin sözlərinə görə, COP28-də fondun fəaliyyətə başlaması ilə bağlı razılaşmanın təqdim edilməsi iqlim tərəqqisi üçün böyük bir irəliləyiş olmaqla yanaşı, daha çox iş görülməsini tələb edir. O əlavə edib: "Gəlin tam fəaliyyət göstərən bir fond vasitəsilə bu tərəqqiyə nail olacağımıza inanaq. Bakıda COP29-da təsdiqlənəcək fond, tezliklə vəsaitləri bölüşdürən davamlı, müsbət, sosial-iqtisadi gələcək naminə onilliklərə təsir edəcək".

COP28-in prezidenti qeyd edib ki, iqlim məsələləri üzrə zərər və itkilər ilk dəfə 1991-ci ildə COP-un gündəliyinə salınıb və fondun yaradılması üçün otuz ildən çox vaxt keçməsinə baxmayaraq, iqlim dəyişikliyi prosesi hələ də səngiməyib. "İndi dünyanın hər bir bölgəsi həssasdır... iqlim dəyişikliyinin təsirləri aydındır. Hər yerdə həyat və yaşayış vasitələri üçün təhlükə yaranıb", - deyə Əl Cabir vurğulayıb.

BƏƏ xarici işlər nazirinin enerji və davamlılıq məsələləri üzrə köməkçisi Abdulla Balalaa isə bildirib ki, tərəflər COP28-in ilk günündə 30 ildən sonra itki və ziyana görə maliyyələşdirmə tədbirləri və fondu təsis edərək tarix yazdılar. Onun sözlərinə görə, iqlim dəyişikliyinə xüsusi həssas olan inkişaf etməkdə olan ölkələri dəstəkləmək üçün bütün tərəflər arasında qlobal həmrəylik lazımdır və Şura bu mandatın iddialı şəkildə yerinə yetirilməsində mühüm rol oynayır.




İqlim dəyişikliyinin mənfi təsirlərinə qarşı xüsusilə həssas olan inkişaf etməkdə olan ölkələrə yardım edəcək fondun fəaliyyətə başlaması və kapitallaşdırılmasına dair razılaşma COP28-in ilk günündə qəbul edilib.

İtki və zərərin maliyyələşdirilməsi tədbirləri üçün cəmi 792 milyon ABŞ dolları vəd edilib, onun 662 milyonu bu günə qədər fonda girov qoyulub, eyni zamanda bu vəsaitin 100 milyon dolları BƏƏ-nin payına düşür.

Əl Cabir vurğulayıb: "Bu, yaxşı bir başlanğıc idi, amma kifayət deyil. Mən bütün imkanlı tərəfləri konkret öhdəliklərlə çıxış etməyə çağırıram. Gəlin bu fondu möhkəm, səmərəli edək". Onun sözlərinə görə, fond həssas icmalardakı real insanlara iqlim təsirlərindən qorunmağa kömək etməlidir, həmçinin uzun müddət üçün onların həyatı və dolanışıq vasitələrini yaxşılaşdırmalıdır.

İtki və zərər istiləşmənin cari səviyyələri fonunda həssas icmalara artıq əhəmiyyətli dərəcədə təsir göstərir. Bu qruplar tufan və daşqınlar, kənd təsərrüfatı məhsuldarlığının azalması və dəniz səviyyəsinin yüksəlməsi kimi ekstremal hava hadisələrinin çoxalması halları ilə üzləşir.

İdarə heyətinin üzvləri müxtəlif millətləri və iqlim dəyişikliyinin təsiri ilə bağlı təcrübələri təmsil edirlər. Şura üzvlərinə inkişaf etmiş ölkələrdən, Asiya-Sakit okean hövzəsi, Afrika, Latın Amerikası və Karib hövzəsi dövlətləri, inkişaf etməkdə olan kiçik ada dövlətləri və ən az inkişaf etmiş ölkələrdən nümayəndələr daxildir.

Azərbaycan.- 2024.- 2 may, № 89.- S.15.